# “Üçrəngli bayrağı öz qanlarıyla Vətən göylərinə çəkdi şəhidlər...”

***Onilliklər boyu Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü nəticəsində xalqımız minlərlə şəhid verib. Onların arasında xidməti vəzifələrini yerinə yetirərkən həlak olan jurnalistlər də var. Birinci Qarabağ müharibəsində haqqın dərgahına ucalmış Çingiz Mustafayev, Salatın Əsgərova, Alı Mustafayev, Fəxrəddin Şahbazov, Kazımağa Kərimov, Osman Mirzəyev və Arif Hüseynzadənin adlarını daim ehtiramla xatırlayırıq. Ötən il iyunun 4-də Kəlbəcər rayonu ərazisində videoçəkilişlər edən jurnalistləri Susuzluq kəndinə aparan nəqliyyat vasitəsinin tank əleyhinə minaya düşməsi nəticəsində AZTV-nin operatoru Sirac Abışov və AZƏRTAC-ın müxbiri Məhərrəm İbrahimov da şəhidlik zirvəsinə ucalıblar.***



Xatırladaq ki, hadisə zamanı həmkarlarımızla bərabər Kəlbəcər Rayon İcra Hakimiyyəti başçısının Susuzluq kənd inzibati dairəsi üzrə nümayəndəsinin müavini Arif Əliyev də həlak olub, dörd nəfər isə yaralanıb. Məhərrəm İbrahimov və Sirac Abışov ölümlərindən sonra Prezidentin sərəncamı ilə 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeninə layiq görülüb.

Ürəklərimizi qana döndərən həmin müdhiş hadisədən bir il ötsə də, biz şəhid həmkarlarımızın yoxluğu ilə barışmadıq, onların ölümünə inanmadıq. Axı şəhidlər ölmürlər, onlar Ulu Tanrının ən sevimli bəndələridir...

Məhərrəm İbrahimov (Əlioğlu) 1982-ci il iyunun 1-də Bakıda dünyaya gəlib. AZƏRTAC-ın xüsusi müxbiri vəzifəsində çalışıb. Ailəli idi, iki oğul övladı Vətənə əmanət qalıb. Faşist xislətli erməni təcavüzkarlarının Kəlbəcər rayonunda basdırdığı minaya düşərək həlak olmasaydı, yenə də sıramızda olacaq, ən qaynar nöqtələrdən reportajlar hazırlayacaqdı.

AZTV-nin operatoru Sirac Abış oğlu Abışov isə 1989-cu il avqustun 29-da Qubadlıda doğulub. Sumqayıt şəhərində yaşayırdı. 2013-cü ildən 2018-ci ilə qədər APA TV-də çalışan Sirac iki il idi ki, böyük həvəslə AZTV-də işləməyə başlamışdı. O da ailəli idi, bir övladı yadigar qalıb.

Acı xəbər nəinki həmkarlarımızın doğmalarını, əzizlərini, eləcə də bütün media dünyasını sarsıtdı. İyunun 4-də saat 11 radələrində tank əleyhinə minanın partlaması Məhərrəmi, Siracı və onları müşayiət edən Arifi əbədiyyətə qovuşdurması ilə müharibələrin necə dəhşətlər saçdığını, hər fürsətdə insan canı aldığını bir daha sübut elədi.

Həyatsevər və nikbin, peşəsinə qəlbən bağlı, vətənpərvər jurnalist olan Məhərrəm 44 günlük Vətən müharibəsinin ilk günündən cəbhəyanı bölgələrə ezam edilmişdi. Düşmən atəşi nəticəsində dağılmış evlərə, obyektlərə gedir, hadisə yerindən xəbərlər, reportajlar hazırlayıb göndərirdi. O, daim hadisələrin mərkəzində olmağa can atırdı. Sorağı Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və digər azad edilmiş ərazilərdən gəlirdi. Hərbi jurnalist kimi üzərinə düşəni lazımınca yerinə yetirirdi. Dəfələrlə AZƏRTAC-da ilin ən yaxşı əməkdaşı adına layiq görülmüşdü. Eləcə də “Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi”, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən “Hərbi vətənpərvərlik tərbiyəsində xidmətlərə görə” medalları ilə təltif olunmuşdu. Ən yüksək mükafatını isə Sirac Abışovla birlikdə ölümündən sonra aldı: 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif olunması tərcümeyi-halının son cümləsini təşkil elədi...

Məhərrəmlə Sirac İkinci Qarabağ savaşının şəhid jurnalistləridir. Çəkiliş qrupu olaraq gördükləri işin mahiyyəti və miqyası çox böyük və əhəmiyyətli idi. Bu dəyəri tarix özü verəcək. Zaman keçəcək, azad olunmuş torpaqlarımız yenidən canlanacaq, quruculuq işləri amansız işğalın izlərini itirəcək, gələcək nəsillər 30 illik işğalın dağıdıcı izini onların çəkdiklərindən, arxivləşdirdiklərindən, yazdıqlarından öyrənəcək. Min dəfələrcə təəssüf edirik ki, hərbi jurnalist kimi peşəkarlaşan, əsl vətənpərvər oğullar kimi kamilləşən bir zamanda bu dünyaya “əlvida” dedilər. Tarix yaza-yaza tarixə qovuşdular. Məhərrəm həmişəlik olaraq 39, Sirac isə 32 yaşında qaldı. Bir zaman gəzdikləri küçələr hazırda onların adı ilə tanınır, yaşadıqları, çalışdıqları binalar onların xatirə lövhələri ilə şərəflənir ...

Mayın 1-də Binəqədi rayonu M.Rəsulzadə qəsəbəsində şəhid jurnalist Məhərrəm İbrahimovun yaşadığı evdə xatirə lövhəsinin açılışı olub. Şəhid jurnalistin qardaşı, həmkarımız Əsgər İbrahimov mərasimdə çıxış edərək vurğulayıb ki, Məhərrəm həmişə torpaqlarımızın işğaldan azad edilməsini, doğma kəndimizi görməyi arzulayırdı. Tale elə gətirdi ki, Məhərrəm ata yurdu Ardanış kəndindən cəmi 50 kilometr məsafədə yerləşən ərazidə şəhidlik zirvəsinə ucaldı. Biz Məhərrəmlə, eləcə də bütün şəhidlərimizlə qürur duyuruq. Onun ağsaqqal həmkarı, özü də “Azərbaycan” qəzetində çalışmış şəhidin – Elgün İsmayılovun atası olan Dağbəyi İsmayılov bildirib ki, Vətən müharibəsində Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı qələbənin qazanılmasına yumruq kimi birləşən xalqımızın sağlam düşüncəli hər bir nümayəndəsi öz töhfəsini verib. Jurnalistlərimiz də müharibənin ilk günlərindən rəşadətli Azərbaycan Ordusunun qəhrəmanlıq salnaməsi, döyüş meydanında əldə etdiyi misilsiz uğurlar barədə xəbərləri xalqımıza və dünyaya çatdırmaq üçün gecə-gündüz yorulmadan çalışıb, bu yolda canlarını əsirgəməyiblər. Erməni vandalizminin, viran edilmiş yurd yerlərinin görüntülərini lentə alaraq arxivləşdiriblər. Xidməti vəzifələrini yerinə yetirərkən şəhid olmuş Məhərrəm İbrahimov və Sirac Abışov da belələrindən idilər. Onlar peşəkar və cəsarətli jurnalistlər kimi yaddaşlarda əbədi qalacaqlar.

“Məhərrəmin məzarını ziyarət edənlər dərindən kövrəlməyə bilmirlər. Həmin Məhərrəmdir: əlində bloknot, üzündə təbəssüm, gözü həyat eşqi ilə dolu. Elə bil harasa – hansısa ünvana, hansısa tədbirə tələsir. Adama elə gəlir ki, bu saat addımlayıb irəli gələcək, bir ildən bəri görmədiyi həmkarları, yoldaşları ilə bir-bir görüşəcək, hamı ilə ayrı-ayrılıqda hal-əhval tutacaq. Təəssüf ki, o, indi qara mərmər başdaşından boylanır...”

İndi dostları, qələmdaşları Məhərrəmin haqqında beləcə elegiyalar, rekviyemlər qələmə alırlar. Onun uyuduğu torpaq yaz çiçəklərinin ətrinə bürünüb.

Sumqayıtda Siracın anım günündə mən də iştirak edirdim. Sirac Birinci Qarabağ müharibəsi zamanı ailəsi ilə birlikdə evindən didərgin düşüb, Sumqayıtda məskunlaşmışdı. Onda cəmi 4 yaşı vardı. “Türkiyə Xəbər Video-operatorları Cəmiyyəti” tərəfindən Siracın və şəhadət yoldaşı Məhərrəmin adına xüsusi mükafat təsis olunub. Keçən ildən Sumqayıt Şəhidlər xiyabanını özü üçün əbədi məskən seçən Sirac Abışovla vida mərasimi yadıma düşür. Onun yaşadığı evdə – Sumqayıt şəhəri, Hacı Zeynalabdin qəsəbəsində keçirilən vida mərasimində Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, media, ictimaiyyət nümayəndələri iştirak edirdilər... 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni, “Hərbi vətənpərvərlik tərbiyəsində xidmətlərə görə” medalları ilə onun əsl igidliyindən soraq verir. Nə etmək olar? Şəhid vermək millətimizin alın yazısı olub. Bunsuz da Vətən Vətən olmur, axı...

Portretinin çərçivəsinə sığmayan bu azman, igid görkəmli gəncin baxışları olduqca nüfuzedicidir. Həzin xatirələr, kövrək yadasalmalar kədərli olsa da, eyni zamanda qürur, iftixar duyğuları yaradırdı. Mərasimdə heç kəs “Heyf səndən, ay Sirac!” deyə bilmədi. Doğmaları belə bu sözləri dillərinin ucundan qaytardılar. Çünki o, cavan ömrünü sidq-ürəklə Vətənə qurban verənlərdəndir.

...İllər ötəcək, Məhərrəmin də, Siracın da ölməz xatirəsi təzə-tər qalacaq.

***Əli NƏCƏFXANLI,***
***“Xalq qəzeti”***